UOT 338.43

*Hikmət Nəsir oğlu İSMAYILOV*
*ADAU-nun dissertantı*

# AQRAR SAHƏDƏ MALİYYƏ STRATEGİYASININ FORMALAŞMASININ EFFEKTİVLİYİ VƏ PRİORİTETLƏR

*Xülasə*

Aqrar sahədə maliyyə strategiyasının formalaşdırılması elmi əsaslandırma tələb etməklə subyektlərin ümumi inkişaf məqsədlərinin reallaşdırılması imkanlarına istiqamətlənir. Maliyyə strategiyası istehsal-təsərrüfat fəaliyyətində müəssisələrin öz fəaliyyətinin nəticələrinə görə məsuliyyətliliyə, maliyyə vəziyyətinin dəyişmə meyillərinin, maliyyə imkanlarının və perspektiv hədəflərin müəyyən edilməsinə, digər təsərrüfatçılıq subyektlərinin maliyyə vəziyyətinin qiymətləndirilməsinə obyektiv zəmin yaradır. Qeyd edilənlər öz növbəsində mövcud problemləri vaxtında aşkara çıxarmağa, həll etməyə və daha effektiv maliyyə strategiyası müəyyənləşdirməyə imkan yaradır.

**Tədqiqatın məqsədi.** Əsas məqsəd aqrar sahədə maliyyə resurslarının və strategiyasının formalaşdırılması xüsusiyyətlərinin araşdırılmasından, maliyyə strategiyasının maliyyə resurslarından səmərəli istifadədə əhəmiyyətinin müəyyən edilməsindən, maliyyə dayanıqlığının yüksəldilməsi perspektivlərinin aşkara çıxarılmasından ibarətdir.

**Tədqiqatın metodologiyası.** Aqrar sahədə maliyyə strategiyasının formalaşdırılması istiqamətində yerli və xarici ölkə alimlərinin elmi-tədqiqat işləri, ölkə Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar, dövlət proqramları və digər hüquqi – normativ aktlar tədqiqatın metodologiyasını təşkil edir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Araşdırma nəticəsində əldə edilən mühüm elmi nəticələr və irəli sürülən təkliflər aqrar sahədə daha effektiv maliyyə strategiyasının formalaşdırılmasına şərait yaratmaqla maliyyə resurslarından səmərəli istifadə üzrə zəruri tədbirlərin müəyyənləşdirilməsi baxımından mühüm tətbiqi əhəmiyyət kəsb edir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Araşdırşma aqrar sahədə maliyyə strategiyasının formalaşdırılması xüsusiyyətlərinin müəyyən edilməsi, effektiv maliyyə strategiyasının formalaşdırılması imkanlarının aşkara çıxarılması, iqtisadiyyatın bu mühüm sferasında müasir tələblər nəzərə alınmaqla bazar münasibətləri şəraitinə uyğun strategiyanın formalaşması üzrə fəaliyyət istiqamətlərinin müəyyən edilməsi, aqrar sahə subyektlərinin maliyyə dayanıqlığının yüksəldilməsi perspektivlərinin aşkara çıxarılması elmi yeniliklər olaraq qiymətləndirilir.

***Açar sözlər: maliyyə strategiyası, investisiya, resurs, kapital, rəqabət, səmərə.***

## *Giriş*

Aqrar sahədə təşkilati-iqtisadi, hüquqi, sosial və digər şərtlərin əhəmiyyətli dərəcədə dəyişməsi bu sferada fəaliyyət göstərən subyektlərin özünümaliyyələşdirmə, öz yığımları və mənfəətləri hesabına fəaliyyət göstərməyə imkan verən resurslarının formalaşdırılması problemlərinin öyrənilməsini tələb edir. Bu baxımdan kənd təsərrüfatı müəssisələri öz fəaliyyətlərini səmərəli həyata keçirmək üçün bütün mümkün vəsaitlərdən, o cümlədən yerli və xarici investisiyalardan geniş şəkildə istifadə etməyə çalışırlar.

Maliyyə resurslarının mahiyyətinin müəyyən edilməsi məsələsi aktual olmaqla praktiki əhəmiyyət kəsb edir. Resurs anlayışı iqtisadi ədəbiyyatda əsasən köməkçi vəsait mənasında işlənməklə pul vəsaitləri, qiymətlilər, ehtiyatlar, imkanlar, vəsaitlərin, gəlirlərin mənbəyi kimi xarakterizə olunur. Maliyyə isə resurs anlayışına məhdudiyyətlər qoyur və eyni zamanda onun mənasını daha konkret olaraq açıqlayır. Maliyyə pul vasitəsilə təzahür edən iqtisadi münasibətlərdir, deməli maliyyə resursları dedikdə pul formasında olan resurslar başa düşülür. Bəzi ədəbiyyatda maliyyə resursları təsərrüfatçılıq subyektinin sərəncamında olan pul vəsaitləri kimi də müəyyənləşdirilir.

Onlar istehsalın inkişafına, qeyri-istehsal sahəsinin saxlanmasına və inkişafına, istehlaka və ehtiyatların əmələ gəlməsinə yönəldilir. Maliyyə resursları təkrar istehsal prosesinin müəyyən dövr ərzində maliyyə nəticələrini kəmiyyət baxımından da xarakterizə edir. Bu həmin pul vəsaitləridir ki, onları haqlı olaraq əsas fondların geri qaytarılmasına, istehsal yığımına, kollektiv istehlaka yönəltmək mümkün olur. Qeyd edilənlərlə yanaşı maliyyə resursları təsərrüfatçılıq subyektinin mülkiyyətində və ya sərəncamında olan və geniş təkrar istehsal, sosial xərclər, işçilərin maddi həvəsləndirilməsi, digər ictimai tələbatların ödənilməsinə yönəldilən pul gəlirlərini, yığımları və daxilolmaları özündə əks etdirir. Ona görə subyektlərin fəaliyyətində maliyyə resurslarından səmərəli istifadəni nəzərdə tutan strstegiyanın hazırlanmasına xüsusi önəm verilir.

**Aqrar sahədə maliyyə resurslarının formalaşması prinsipləri**

Tədqiqatlar göstərir ki, maliyyə resursları mürəkkəb anlayışdır və onu tam olaraq pul vəsaitləri ilə eyniləşdirmək olmaz. Eyni zamanda maliyyə resurslarının kəmiyyət hüdudlarını təyin etmək və onların xüsusiyyətlərini xarakterizə etmək üçün mümkün olan pul vəsaitləri kateqoriyasından fərqli və daha dəqiq meyar seçmək kifayət qədər çətindir. Bu baxımdan kənd təsərrüfatı müəssisələrinin maliyyə resursları təsərrüfatçılıq subyektinin sərəncamında olan və maliyyə öhdəliklərinin yerinə yetirilməsinə, cari xərclərin və istehsalın genişləndirilməsi, işçilərin iqtisadi stimullaşdırılması ilə bağlı xərclərin ödənilməsinə təyinatlanan bütün pul gəlirlərinin və daxilolmalarının məcmusunu özündə birləşdirir. Məlumdur ki, hər bir təsərrüfatçılıq subyekti müxtəlif maliyyələşdirmə mənbələrindən istifadə edərək maliyyə resurslarını formalaşdırır. Cəlb olunan bütün maliyyə resurslarının maddi əsası pul vəsaitləridir, lakin maliyyələşdirmə mənbəyinin müəyyən xüsusiyyətləri var və müəssisələrin bugünkü və gələcək vəziyyətinə müxtəlif səviyyələrdə təsir edir. Ona görə də çox vacibdir ki, müəssisələr maliyyə mənbələrinin dəstini seçərkən düşünülmüş maliyyə siyasəti yürütsün və belə siyasətin nəticələrini qiymətləndirsin.

Kənd təsərrüfatı müəssisələrinin maliyyə resurslarının mənbəyinin və tərkibinin ümumiləşdirilmiş təsnifatı aşağıdakılardan ibarətdir: xüsusi maliyyə resursları, ehtiyat kapitalı, xüsusi fondlar, mənfəət, investisiya fəaliyyətindən daxil olan mənfəət, əsas vəsaitlərin amortizasiyası, qısa və uzunmüddəli kreditlər, iş və xidmətlərdən daxil olan gəlirlər və s.

Araşdırmalar göstərir ki, maliyyə resurslarını formalaşdıran zaman aşağıdakı əsas prinsipləri nəzərə almaq vacibdir: müəssisə ilə münasibətdə: daxili və xarici; müəssisənin mülkiyyətçilərinə münasibətdə: özününkü və borc; istifadə müddətləri üzrə: qısamüddətli və uzunmüddətli; mükafatın tipi üzrə: möhkəmlənmiş qiymətlə və üzən qiymətlə.

Müəssisələrin maliyyə münasibətlərinin bütün kompleksi, qeyd edildiyi kimi, təsərrüfat subyektlərinin pul vəsaitlərinin hərəkətində, maliyyə resurslarının formalaşdırılmasında və istifadəsində əks olunur. Aqrar sfera müəssisələrinin maliyyə resursları təşkilatın öz münasibətlərini necə qurmasından və onlardan hansılarının üstünlük təşkil etməsindən asılı olaraq formalaşır. Müəssisələrin cəlb etdiyi maliyyə resurslarında fərqlər maliyyələşdirmə mənbələrindən asılı olaraq müəyyənləşdirilir ki, bu resurslar onların vasitəsilə əldə edilir [2, s. 38]. Ona görə də onlar müəssisələrin maliyyə vəziyyətinə müxtəlif formalarda təsir edirlər. Bütün maliyyə resurslarının maddi əsası pul vəsaitləri olmasına baxmayaraq bu təsir müxtəlif tərzdə mövcud olaraq özünü göstərir.

Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə kənd təsərrüfatı müəssisələrinin maliyyə fəaliyyətində öz kapitalının və borc kapitalının seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Müəssisələrin öz kapitalı onun maliyyə tələbatlarının maliyyələşdirilməsinin ən uzunmüddətli mənbəyi hesab edilir, çünki o adətən müəssisənin fəaliyyətinin bütün dövrünə aid edilir. Bu kapital növü təsərrüfat subyektinin idarəetmə prosesində iştirak etmək, mənfəətin bir hissəsi şəklində mükafat almaq, onun ləğv edilməsi zamanı isə əmlakın bir hissəsini almaq hüququ qazanır. Borc kapitalı özünün strukturuna görə daha az yekcinsdir. Onların ümumi cəhətləri odur ki, borc vəsaitlərinin mükafatı sabit olur və ya xarici amillərdən asılı olur. Bundan başqa borc vəsaitləri təsərrüfat subyektinin idarə edilməsində, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla iştirak etmək hüququ qazanmırlar. Kənd təsərrüfatı müəssisələrinin maliyyə resursları müəssisələrin sərəncamında olan və təyinatlı maliyyə-kredit öhdəliklərinin yerinə yetirilməsi, cari xərcləri və istehsalın genişləndi-

rilməsi, işçilərin iqtisadi stimullaşdırılması ilə bağlı xərcləri maliyyələşdirmək olan pul gəlirlərinin və daxilolmalarının bütün növlərini əhatə edir. Beləliklə, kənd təsərrüfatı müəssisələrinin maliyyə resurslarının formalaşması mənbələrinini borc mənbələri (bankın uzunmüddətli və qısamüddətli kreditləri), qısamüddətli debitor və kreditor borcları, bütün səviyyələrdə büdcələrdən subsidiyalar və mənfəət təşkil edir. Lakin irihəcmli kənd təsərrüfatı müəssisələrinin əksəriyyətində maliyyə resurslarının formalaşmasının əsas mənbəyi öz vəsaitləridir (cari fəaliyyətdən alınan mənfəət, investisiya və maliyyə fəaliyyətindən gələn gəlirlər, əsas vəsaitlərin amortizasiyası, əlavə kapital, ehtiyat kapitalı, bölüşdürülməmiş mənfəət) və onların idarə olunmasını düzgün təşkil edən təsərrüfatların yüksək maliyyə dayanaqlığı və ödəmə qabiliyyətidir.

**Aqrar sahədə maliyyə strategiyasının formalaşması xüsusiyyətləri**

Fəaliyyət istiqamətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq istənilən müəssisənin müvəffəqiyyətinin ən vacib şərti onun maliyyə strategiyasının formalaşdırılmasıdır. Müəssisələrin maliyyə strategiyalarının formalaşdırılması məsələləri təşkilati-praktiki tərəfdən də spesifikliyi ilə fərqlənir. Maliyyə strategiyasının formalaşdırılması prosesinin mərhələlərinin vahid ardıcıllığının əsaslandırılmasının onun həyata keçirilməsi prinsiplərinin, müəssisələrin və ilk növbədə kənd təsərrüfatı təşkilatlarının müxtəlif xarakteristikalarının nəzərə alınması qeyd edilənlər baxımından xüsusi əhəmiyyət kəsb edir. Bundan başqa müəyyən təsərrüfat subyektlərinin maliyyə strategiyası və onun reallaşdırılması mexanizmi nəticəni formalaşdıran əsas istiqamətlər hesab edilir [3, s.24]. Lakin xarici mühitin dinamikliyi səbəbindən müəssisələrin fəaliyyətinə müxtəlif xarakterli amillərin təsirini nəzərə alaraq maliyyə strategiyasının formalaşdırılması problemi yaranır ki, bu da tədqiqatların davam etdirilməsi zərurətinin olmasını şərtləndirir.

Kənd təsərrüfatında müəssisələrin maliyyə strategiyasının formalaşdırılması ümumi idarəetmə sistemində onun yerinin və əhəmiyyətinin əsaslandırılmasını tələb edir. Qeyd etmək lazımdır ki, təsərrüfat fəaliyyətinin idarə edilməsi yalnız onun müxtəlif aspektləri üzrə cari idarəetmə qərarlarının qəbul edilməsindən ibarət deyil. Hazırda daha çox müəssisə təsərrüfat fəaliyyətinin perspektiv idarə edilməsinin, onun istiqamətlərinin və formalarının qabaqcadan görülməsinin elmi əsaslandırma əsasında olmasında, müəssisənin ümumi inkişaf məqsədlərinə və dəyişən xarici mühitin tələblərinə uyğunlaşdırılmasında maraqlıdır. Bazar münasibətləri və müəssisələrin müstəqilliyi müəssisələrin öz fəaliyyətinin nəticələrinə görə məsuliyyətliliyə, maliyyə vəziyyətinin meyillərinin, maliyyə imkanlarının və perspektiv hədəflərin müəyyən edilməsinə, digər təsərrüfatçılıq subyektlərinin maliyyə vəziyyətinin qiymətləndirilməsinə obyektiv zərurət yaradır. Bunlar müəssisələrə mövcud problemləri həll etməyə və daha effektiv maliyyə strategiyası müəyyənləşdirməyə kömək edir. Əslində maliyyə strategiyası müəyyən məqsədə nail olmaq üçün müəssisənin fəaliyyət inkişafının uzunmüddətli maliyyə planı (proqramı) kimi xarakterizə olunur. Maliyyə strategiyası təsərrüfat subyektinin qarşısına qoyduğu məqsədi təmin etmək üçün hansı yolla hərəkət etməli olduğunu müəyyən edir.

Kənd təsərrüfatı müəssisələrinin maliyyə strategiyasının formalaşdırılması kifayət qədər mürəkkəb və əməktutumlu prosesdir, çünki bu, xeyli vaxt, əmək sərf etməyi və kompleks hesablamalar aparmağı tələb edir. Strategiyanın formalaşdırılmasının həyata keçirilməsində aşağıdakı amillərin nəzərə alınması vacibdir: maliyyə strategiyasının müəssisənin ümumi inkişaf strategiyasına hədəflənməsi; təsərrüfatçılıq fəaliyyətinin qanunvericilik və hüquqi-normativ tənzimlənməsinin səviyyəsi, ölkədəki iqtisadi və siyasi vəziyyət; müəssisənin bazar mövqeyi, çünki maliyyə strategiyasının seçimi müəssisənin marketinq siyasətindən - məhsul istehsalının hansı məqsədli auditoriyaya istiqamətlənməsindən, müəssisənin hansı bazar tipini (yerli və ya beynəlxalq) və payını tutmağı planlaşdırdığından asılıdır; müəssisənin resurs təminatı - maliyyə strategiyasının formalaşdırılmasına resursların miqdarı və keyfiyyəti, o cümlədən işçilərin sayı və peşəkarlığı, əsas vəsaitlərin olması, öz vəsaitləri ilə təmin olunması, borc vəsaitini və investisiyaları cəlb edə bilmək imkanı, innovasiya potensialı və s. təsir edir; müəssisənin sahə mənsubiyyəti, iqtisadiyyatın müəssisənin mənsub olduğu sahəsi onun maliyyə strategiyasının formalaşdırılmasının istiqamətini müəyyən edir, kənd təsərrüfatı isə bildiyimiz kimi, milli iqtisadiyyatın digər sahələri ilə müqayisə-

də xeyli sayda spesifik xüsusiyyətlərə malikdir; mövcud olan və potensial rəqib-müəssisələrin maliyyə vəziyyəti və rəqabət üstünlükləri, malgöndərənlərin və alıcıların etibarlılığı; inflyasiya dalğalanmaları, valyuta kurslarının sıçrayışları, risklər, maliyyə böhranı ehtimalından və s. yaranan risklərin səviyyəsi; əmtəə və maliyyə bazarlarının konyunkturu və onun dəyişməsi.

**Maliyyə strategiyasının formalaşdırılmasının mərhələləri və effektivliyi**

Müəssisələrin maliyyə strategiyasının başlıca məqsədi subyektin bazar dəyərinin maksimallaşdırılması və fəaliyyətinin səmərəliliyinin yüksəldilməsidir [5, s. 81]. Araşdırmalar göstərir ki, müəssisələrin maliyyə inkişafının vəzifə və xüsusiyyətlərinin nəzərə alınması yolu ilə buna nail olmaq olar. Strateji maliyyə məqsədləri sistemi uzunmüddətli perspektivdə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsi prosesində öz maliyyə resurslarının kifayət qədər həcminin formalaşdırılmasını və öz kapitalından istifadənin yüksək rentabelliyini, aktivlərin və dövriyyə kapitalının strukturunun optimallaşdırılmasını, maliyyə risklərinin qəbul edilən səviyyəsinin müəyyən edilməsini təmin etməlidir. Effektiv maliyyə strategiyasının formalaşdırılması müəyyən mərhələlərin ardıcıllığını nəzərdə tutur:

- müəssisənin fəaliyyət göstərdiyi bazar mühiti (rəqiblər, malgöndərənlər, müştərilər, vasitəçilər, dövət orqanları və xidmətləri, banklar) barədə məlimatın toplanması və hərtərəfli təhlili olmadan o mümkün deyil. Bu mərhələdə maliyyə menecerləri müvafiq maliyyə alətlərindən istifadə etməlidirlər: mikroiqtisadi maliyyə planlaşdırması, proqnozlaşdırma, strateji və maliyyə təhlili ( müəssisənin zəif və güclü tərəflərini, riskləri və əlavə imkanları əhatə edən SVOT-təhlil), statistik üsullar və iqtisadi-riyazi modelləşdirmə;
- təhlil işini yerinə yetirdikdən, müvafiq hesablamaları həyata keçirdikdən, hadisələrin alternativ inkişaf variantlarını müzakirə etdikdən sonra maliyyə strategiyasının seçilməsi barədə idarəetmə qərarı qəbul edilir. Sonradan həmin strategiya maliyyə siyasətinin istiqamətəri üzrə detallaşdırılır və plan üzrə reallaşdırılır. Əgər malyyə strategiyasının formalaşması və reallaşdırılması prosesində göstəricilərin faktiki qiymətlərinin plandan və müəssisənin fəaliyyətinin müəyyən şərtlərindən müəyyən kənarlaşmaları aşkar edilərsə, onda həmin kənarlaşmalar aşkar edilən mərhələdə strategiyaya düzəlişlər edilir;
- maliyyə strategiyasının həyata keçirilməsini asanlaşdırmaq üçün onun taktiki planların tərtib edilməsi yolu ilə detallaşdırılması həyata keçirilir. Taktiki planlaşdırma seçilən strategiyanın reallaşdırılması mexanizmlərinin formalaşdırılmasına istiqamətlənir. Onun iki növü mövcuddur: operativ və cari planlaşdırma. Cari planlaşdırma seçilən maliyyə strategiyasının vəzifələrinin yerinə yetirilməsi üçün müəssisənin konkret sahələrinin və ya fəaliyyətinin bütövlükdə il ərzində fəaliyyət göstərməsinin cari planlarının formalaşdırılması məqsədi ilə parametrlərin, tədbirlərin, büdcələrin və inzibati-maliyyə alətlərinin işlənib hazırlanmasına yönələn idarəetmə fəaliyyətinin bir növüdür. Operativ planlaşdırma müəssisənin fəaliyyətinin konkret məsələləri üzrə dar, hərtərəfli, qısamüddətli cari planların detallaşdırılması yolu ilə formalaşan planlarının işlənilməsinə istiqamətlənən planlaşdırmadır. Operativ və cari planlar müəssisənin maliyyə strategiyasından kənara çıxmamalıdır, əksinə, onu konkretləşdirib tamamlamalıdır.

Araşdırmalar göstərir ki, maliyyə strategiyası müəssisənin ümumi strategiyasının tərkib hissəsi kimi çıxış edir, məqsəd və vəzifələri ona uyğunlaşdırılır. Bununla yanaşı, məqsəd və vəzifələr onun təbiəti, maliyyə resurslarının formalaşdırılması və istifadəsinə dair bazar subyektləri arasında yaranan iqtisadi münasibətlərlə müəyyənləşdirilir. Maliyyə strategiyasının səciyyəvi xüsusiyyəti qismində onun mikro və makro səviyyədə ümumdövlət maliyyəsi ilə əlaqələri çıxış edir. Effektiv maliyyə strategiyasının formalaşdırılmasına aşağıdakı istiqamətlər baxımından yanaşılır:

- ümumi strategiyanın komponenti –funksional strategiyalardan biridir ki, məqsədi bazarda maliyyə mövqelərini tutmaqdır;
- baza strategiyası - istənilən baza strategiyasının reallaşdırılmasını (maliyyə alətlərinin, maliyyə menecmentinin və s. köməyi ilə) təmin edir. Onun başlıca məqsədi maliyyə resurslarını səmərəli istifadə və idarə etməkdir.

Müəssisələrin dayanıqlı inkişafını təmin etmək üçün maliyyə strategiyasını səlis ifadə etmək və bu zaman başlıca strateji məqsədə riayət etmək tələb edilir:

- maliyyə resurslarını formalaşdırmaq və ona mərkəzləşdirilmiş qaydada strateji rəhbərlik etmək;
- həlledici istiqamətləri aşkar etmək və səyləri onlardan istifadəyə, müəssisənin maliyyə ehtiyatlarından istifadə baxımından çevik olmasının üzərində cəmləşdirmək;
- maliyyə üzrə hərəkətləri konkret müəssisənin iqtisadi vəziyyətinə və maddi imkanlarına uyğunlaşdırmaq;
- müəssisənin rüb, il ərzində maliyyə-iqtisadi vəziyyətinin və real maliyyə durumunun obyektiv uçotunu aparmaq;
- strateji ehtiyatların yaradılması və hazırlanmasını təmin etmək;
- müəssisənin özünün və onun rəqiblərinin iqtisadi və maliyyə imkanlarını nəzərə almaq;
- rəqiblər tərəfindən gələn başlıca təhlükəni və riskləri müəyyən etmək, onun aradan qaldırılması üzərində gücləri səfərbər etmək və maliyyə hərəkətlərinin istiqamətini bacarıqla seçmək;
- rəqiblər üzərində həlledici üstünlüyə malik olmaq üçün manevr etmək və iqtisadi mübarizə aparmaq.

Beynəlxalq təcrübə göstərir ki, maliyyə strategiyasına maliyyə resurslarının formalaşdırılmasının üsul və təcrübəsi, onların planlaşdırılması və rəqabətli bazar şəraitində müəssisənin sabitliyinin və maliyyə dayanıqlılığının təmin edilməsi daxildir. Maliyyə strategiyasına uyğun olaraq müəssisənin maliyyə fəaliyyətinin ayrı-ayrı tərəfləri üzrə ümumi strategiyanın reallaşdırılması forması kimi maliyyə siyasəti müəyyənləşdirilir. Maliyyə siyasətini formalaşdırarkən müəssisənin fəaliyyətinin strateji məqsədinə nail olmaq məqsədilə onun maliyyə fəaliyyətinin hansı istiqamətlərinin daha səmərəli idarəetməni tələb etdiyini nəzərə alırlar. Maliyyə strategiyasını işləyib hazırlayan zaman rəqabət qabiliyyətli məhsul istehsalına, daxili resursların səfərbər edilməsinə, məhsulun maya dəyərinin maksimal dərəcədə aşağı salınmasına, mənfəətin formalaşdırılmasına və bölgüsünə, kapitalın səmərəli istifadəsinə və s. xüsusi diqqət yetirilməlidir. Bu baxımdan ilk növbədə müəssisənin maliyyə-təsərrüfat vəziyyətinin uzunmüddətli perspektivdə dəyişdirilməsinin məqsədəuyğunluğuna dair tədbir kimi, baza maliyyə strategiyasını müəyyən etmək lazım gəlir. Belə tədbirlərdə başlıca məqsəd maliyyə xidmətlərindən daha səmərəli istifadənin təmin edilməsidir. Əslində "maliyyə xidmətləri sektorunun inkişafı, maliyyə vasitəçiliyinin dərinləşməsi, maliyyə sektoru və istehlakçılar arasında qarşılıqlı əlaqələrin genişlənməsi maliyyə xidmətləri istehlakçılarının maraqlarının qorunmasını və maliyyə savadlılığının artırılmasını zəruri edir" [1]. Deməli, bu məsələlərin qarşılıqlı olaraq nəzərə alınması vacibdir.

**Aqrar sahədə maliyyə strategiyasının formalaşdırılmasında əsas hədəflər və prioritetlər**

Bazar münasibətləri, müəssisələrin müstəqilliyi, öz fəaliyyətinin nəticələrinə görə məsuliyyət şəraitində maliyyə vəziyyətinin meyillərini, maliyyə imkanlarının və perspektivlərinin hədəflərini müəyyən etməyə, digər təsərrüfat subyektlərinin maliyyə vəziyyətini qiymətləndirməyə obyektiv zərurət yaranır. Bunların həll edilməsinə müəssisələrin maliyyə strategiyası kömək edir. Araşdırmalar göstərir ki, bu strategiyaya müəssisənin fəaliyyət mühitinin əlverişli olmayan dəyişmə şəraitində maliyyə vəziyyətinin və onun ödəmə qabiliyyətinin sabitləşdirilməsi tədbirləri daxil edilməlidir. Mənfi və riskli amillər nəzərə alınaraq müəssisənin düzəlişlər edilmiş maliyyə strategiyası onun əməliyyat fəaliyyətinin yüksək templərini təmin etməlidir və eyni zamanda onun gələcəkdə müflisləşməsi təhlükəsini neytrallaşdırmalıdır.

Maliyyə strategiyasında əsas hədəflərdən biri investisiyaların istehsalata cəlb edilməsi ilə bağlıdır. İnvestisiya prosesi pul vəsaitlərinin formalaşdırılmasından başlanır və istehsalat binaları və qurğuları, avadanlıqları və texnologiyaları, məişət və sosial infrastruktur obyektləri formasında real aktivlərin yaradılması ilə başa çatır [4, s. 63]. Mikroiqtisadi səviyyədə investisiya prosesinin əsas mərhələləri kimi aşağıdakıları fərqləndirmək olar:

- investisiya barədə qərarların qəbul edilməsi (investisiyaqabağı mərhələ);
- investisiyanın həyata keçirilməsi (investisiya mərhələsi) və istismarı (investisiyadan sonrakı mərhələ).

Adətən investisiya prosesi iki amil ilə – zaman və risklə sıx bağlıdır. Bu baxımdan zəruri maliyyə vəsaiti lazımi vaxtda və müəyyən məbləğdə ödənilməlidir.

Aqrar sektorda investisiya fəaliyyəti aşağıdakı özünəməxsus xüsusiyyətlərə malikdir:

- kənd təsərrüfatı istehsalının mövsümi xarakter daşıması;
- kənd təsərrüfatında istehsalın əsas vasitəsi olan torpağın vəziyyətinin daima dəyişməsi;
- istehsalat dövrünün nisbətən uzunmüddətli olması;
- torpaqların meliorasiyası və keyfiyyətinin yaxşılaşdırılması xərclərinin böyük olması və s.

İnvestisiya prosesinin reallaşdırılması investisiyaların maliyyələşdirilməsi üçün mümkün mənbələrin, onların səfərbər edilməsi, istifadə səmərəliliyinin artırılması üsullarının təyin edilməsi sahəsində həllərin axtarılması ilə əlaqədardır. Makroiqtisadi və mikroiqtisadi səviyyələrdə investisiyaların maliyyələşdirilməsinin daxili və kənar mənbələrini fərqləndirmək lazımdır. Makroiqtisadi səviyyədə investisiyaların maliyyələşdirilməsinin daxili mənbələrinə dövlət büdcəsindən maliyyələşməni, əhalinin əmanətləri, müəssisələrin yığımları və s. aid etmək olar. Xarici investisiyalar, kreditlər və istiqrazlar investisiyaların maliyyələşdirilməsinin kənar mənbələridir. Mikroiqtisadi səviyyədə (müəssisələr səviyyəsində) investisiyaların formalaşdırılması mənbələrini təhlili edərkən investisiyaların maliyyələşdirilməsi mənbələrini üç əsas qrupa bölürlər: özününkü, cəlb edilmiş və borc vəsaiti. Bu zaman öz mənbələri daxili, cəlb edilən və borc vəsaitləri isə investisiyaların maliyyələşdirilməsinin kənar mənbəyi kimi çıxış edir. Buna görə də vəsaitlərin, sərmayənin minimum qiymətini təmin edən mənbələrdən cəlb edilməsi məqsədəuyğun hesab edilir.

Maliyyə strategiyasının əsasını müəssisənin ödəmə qabiliyyətinin və maliyyə dayanıqlığının yüksəldilməsi məqsədilə onun maliyyə resurslarının (kapitalının) axtarışı, səmərəli istifadəsi və quruluşunun idarə edilməsi təşkil edir. Maliyyə strategiyası müəssisənin idarə edilməsinin istiqamətvericisidir və bu strategiya düzgün formalaşdırılmasa müasir rəqabətli bazar şəraitində istehsal təsərrüfat fəaliyyətini həyata keçirən zaman maliyyə problemlərindən qaçmaq mümkün olmaz. Ona görə də müəssisələrin maliyyə strategiyasının müəyyənləşdirilməsində maliyyə resurslarının formalaşmasına, onlardan səmərəli istifadəyə, maliyyə resurslarının daha effektiv şəkildə idarə olunmasına, müəssisənin istehsal-təsərrüfat fəaliyyətinə birbaşa və dolayı təsir edən müxtəlif risklərin, xüsusilə maliyyə risklərinin azaldılmasına xüsusi diqqət yetirilməlidir.

### *Nəticə*

Effektiv maliyyə strategiyasının hazırlanması rəqabət qabiliyyətli məhsul istehsalına, daxili resursların səfərbər edilməsinə, məhsulun maya dəyərinin maksimal dərəcədə aşağı salınmasına, mənfəətin artmasına, kapitalın səmərəli istifadəsinə və beləliklə, subyektlərin maliyyə dayanıqlığının yüksəldilməsinə gətirib çıxarırır. Bu baxımdan maliyyə resurslarından səmərəli istifadəni özündə ehtiva edən strategiyanın formalaşdırılması tədbirləri uzunmüddətli perspektivdə aqrar sahənin davamlı inkişafının təminatçısına çevrilə bilər.

### ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”. 2016-cı il, 6 dekabr.
2. Sadıqov M., Hüseynov M., Həsənov H. Kənd təsərrüfatının maliyyəsi. Gəncə, ADAU nəşriyyatı – 2012. 404 s.
3. Савцова А.В., Ушвицкий Л.И., Соловьева И.В., Карпов П.Н. Финансовая стратегия предприятия: формирование и реализация. Коллективная монография. Северо-Кавказский Федеральный университет (СКФУ), 2016. – 156 с.
4. Никулин Н.Н. Инвестиционная политика в условиях цифровизации: учебник. М.: ЮНИТИ, 2020. 471 с.
5. Костина Р., Уколов А. Финансовые стратегии компаний АПК. Издательство: Директ-Медиа. Москва 2017. 742 с.

*Хикмет Насир оглы Исмаилов*
*диссертант АГАУ*

**Эффективность и приоритеты формирования финансовой стратегии в аграрной отрасли**

*Резюме*

**Цель исследования.** Основная цель состоит в исследовании особенностей формирования финансовой стратегии в аграрной отрасли, определении значения финансовой стратегии в эффективном использовании финансовых ресурсов, выявлении перспектив повышения финансовой устойчивости.

**Методология исследования.** Методологию исследования составляют научно-исследовательские работы отечественных и зарубежных ученых в области формирования финансовой стратегии в аграрной отрасли, указы и распоряжения Президента страны, принятые Милли Меджлисом законы, государственные программы и другие нормативно-правовые акты.

**Прикладное значение исследования.** Значительные научные выводы, полученные в результате исследования и выдвинутые предложения имеют важное значение с точки зрения создания условий для формироввания более эффективной финансовой стратегии в аграрной отрасли и определения необходимых мер по эффективному использованию финансовых ресурсов**.**

**Оригинальность и научная новизна исследования.** Исследование оригинально с точки зрения aqrar определения особенностей формирования финансовой стратегии в отрасли, выявления возможностей формирования эффективной финансовой стратегии. В качестве научной новизны оцениваются определение направлений деятельности в этой важной сфере экономики по формированию стратегии, соответствующей условиям рыночных отношений и с учетом современных требований, выявление перспектив повышения финансовой устойчивости субъектов аграрной отрасли.

**Заключение. Результаты** исследования показывают, что подготовка эффективной финансовой стратегии приводит к производству конкурентоспособной продукции, мобилизации внутренних ресурсов, максимальному снижению себестоимости продукции, увеличению прибыли, эффективному использованию капитала и таким образом к повышению финансовой устойчивости субъектов. С этой точки зрения меры по формированию стратегии, включающей эффективное использование финансовых ресурсов могут превратиться в гаранта устойчивого развития аграрной отрасли в долгосрочной перспективе.

***Ключевые слова: финансовая стратегия, инвестиция, ресурс, капитал, конкуренция, эффект.***

*Hikmat Nasir Ismayilov*
*PhD of ASAU*

**Effectiveness and priorities of financial strategy formation in the agricultural sector**

*Summary*

**The purpose of the study**. The main purpose is to study the features of the formation of financial strategy in the agricultural sector, to determine the importance of financial strategy in the efficient use of financial resources, to identify prospects for improving financial sustainability.

**Research methodology.** The research methodology consists of the research papers of the local and foreign scientists in the formation of financial strategy in the agricultural sector, decrees and orders of the President of the country, laws adopted by the Milli Majlis, state programs and other

legal and normative acts constitute the research methodology in the formation of financial strategy in the agrarian sphere.

**The importance of the study of the application.** The important scientific results and proposals obtained as a result of the research are important in terms of identifying the necessary measures for the efficient use of financial resources, creating conditions for the formation of a more effective financial strategy in the agricultural sector.

**Originality and scientific novelty of the research.** The research is original in terms of identifying the features of the formation of financial strategy in the agricultural sector, the identification of opportunities for the formation of an effective financial strategy. In this part of the economy, determination of directions of activity on formation of strategy in accordance with market conditions based on modern requirements, identification of prospects for improving the financial sustainability of agrarian entities assessed as scientific innovations.

**The result**. The results of the study show that the development of an effective financial strategy leads to the production of competitive products, the mobilization of domestic resources, minimizing the cost of production, increasing profits, efficient use of capital, and thus increasing the financial sustainability of entities. In this regard, measures to formulate a strategy that includes the efficient use of financial resources can become a guarantor of sustainable development of the agricultural sector in the long run.

***Key words: financial strategy, investment, resource, capital, competition, efficiency.***